**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

**№ 102 (1230) 2 iyun - 3 iyun 2016-cı il**

# Yeniləşən Salyan

**(Əvvəli ötən sayımızda)**

Təbii ki, ölkənin bütün bölgələri Azərbaycan prezidenti İlham Əliyev cənablarının imzaladığı Regionların İnkişafına dair Dövlət Proqramına uyğun olaraq öz inkişaf paramertlərini hazırlayıblar. Yəni hər bir bölgənin özünəməxsus coğrafiyası nəzərə alınmaqla yeni inkişaf proqramı da tərtib olunub. Məhz uyğunlaşdırılmış bu proqrama əsaslanan bugünkü inkişaf tempi həm ölkənin, həm də regionun ümumilikdə bütün sahələrini əhatə edir. Məhz ayrı-ayrı sahələrin qabardılması isə ölkə prezidentinin hər il elan etdiyi əsas diqqət mərkəzinə çıxarılan sahələrlə bağlıdır. Yəni ötən il Azərbaycanda "Sənaye ili" kimi yadda qaldı. Bu il isə cənab prezidentin vurğuladığı kimi Azərbaycanda "Kənd təsərrüfatı ili" kimi xarakterizə olunur. Deməli, ölkənin kənd təsərrüfatının daha da inkişaf etdirilməsi, qeyri-neft sektorunun bütün imkanlarının araşdırılıb ortaya çıxarılması və onun inkişafına təkan verilməsi ilin əsas vəzifələrindən biridir.

Bu mənada Salyan rayonu kənd təsərrüfatı rayonu olduğundan burada qeyd olunan sahənin daha sürətli və çoxşaxəli bir şəkildə inkişaf etdirilməsi qarşıya bir məqsəd kimi qoyulubdu. Elə bu səbəbdəndir ki, rayon icra hakimiyyətinin başçısı və onun komandası, eləcə də əlaqədar qurumlar qarşıya qoyulmuş vəzifənin vaxtında və effektli icrasını təmin etmək üçün əlbir çalışırlar. Əgər bu ilin birinci rübündə görülmüş işlərə diqqət yetirsək, onda məlum olar ki, Salyan rayonunda kənd təsərrüfatının sürətli inkişafı üçün müvafiq tədbirlər əhyata keçirilib. Xüsusi olaraq ölkədə

> **"... Bu gün Azərbaycan təkcə neft ölkəsi deyil, bü gün Azərbaycan həm də kənd təsərrüfatı, sənaye ölkəsidi. Bizim kifayət qədər təbii, iqtisadi sərvətlərimiz, gücümüz, imkanlarımız var. Çalışmalıyıq ki, bundan sonra da qeyri-neft sektorunu daha da geniş əhatədə, daha böyük sürətlə inkişaf etdirib Azərbaycanın nemətlərini təkcə özümüzün, ölkəmizin bazarlarında deyil, həm də dünya bazarlarına çıxaraq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

sahibkarlığın inkişafına kömək məqsədilə yaradılmış milli fondun ayırdığı kreditlər və sahibkarlara müxtəlif məbləğlərdə vəsaitlərin verilməsi adı çəkilən sahənin inkişafında öz müsbət bəhrəsini verməkdədir. Bir az da konkret ifadə etsək, məhz Sahibkarlığa Milli Fondunun kreditləri, maliyyə dəstəyi yerli sahibkarların istehsal və emal sahələri üzrə işlərini daha mükəmməl, həm də səmərəli qurumalarına xeyli təkan verib. Bunun nəticəsində də rayonun bir çox kəndlərində, o cümlədən də Çuxanlı kəndində "Şəfa" Quşçuluq Açıq Səhmdar Cəmiyyəti yaradılıbdı. Bu ASC-də istehsal gücü 500000 ədəd yumurta olan yumurta sexinin tikintisi, həmçinin rayonun Qaraçala qəsəbəsində fəaliyyət göstərən "Hacı Camalxan" kəndli fermer təsərrüfatı tutumu 10 min ton olan taxıl anbarının tikintsini başa çatdırmışdı. Salyan rayonunda sahibkarlarla fermerlər ayrı-ayrı sahələrə böyük maraq göstərirlər. Elə həmin marağa diqqət yetirsək, onda görərik ki, bu gün Salyan rayonunda 2400 başlıq, özü də bütün tələblərə cavab verən beynəlxalq standartlara uyğun südəmtəə kompleksi, rayonun Qırxçıraq qəsəbəsində "Ələddin fermer" MMC isə öz növbəsində istehsal gücü 600 ton olan quru meyvə müəssisəsi, Kürsəngi kəndində istehsal gücü 100 min dekolitr olan şərab zavodunun tikintisi sürətlə davam etdirilməkdədi. Sevindirici haldır ki, bu müəssisələrin hamısında Salyan sakinlərinin işlə təimn olunması problem idə qismən öz həllini tapa bilibdi. Yeri gəlmişkən, oun da qeyd edək ki, rayonun Kür Qaraqaşlı kəndində də "Nurgun Aqro" MMC özünün 25 başlıq süd sağımı sexinin tikintisini başa çatdırıbdı. Təbii ki, rayonda süd, ət istehsalına olan bu maraq öz növbəsində heyvandarlığın da inkişaf etdirilməsinə, onun yem bazasının yaradılmasına zərurət yaradır və deməli, bütün bu işlər bir növü paralel aparılır.

Salyan rayonunda kənd təsərrüfatının bağçılıq, bostançılıq sahələrinin də inkişaf etdirilməsi üçün normal şərait yaradılıb. Yəni hər kəs öz istəyinə və bazarın tələbinə uyğun olaraq bostan-tərəvəz məhsulları, eləcə də meyvə istehsalı ilə məşğul ola bilir. Bu isə öz növbəsində adamların həm işlə təminatına, həm ailə büdcələrinin möhkəmlənməsinə, xüsusilə insanların torpağa bağlanmasına səbəb olan önəmli cəhətlərdən biridir.




Bu gün, daha doğrusu 2016-cı ilin birinci rübündə Salyan rayonunda daimi iş yeri kimi fəaliyyət göstərən 182 iş yeri yaradılıb. Deməli, 182 nəfərin işlə təmin olunması, həm də 182 ailənin şəxsi büdcəsinin təmin olunması deməkdi.

Yeri gəlmişkən onu da xatırladaq ki, 2016-cı ilin birinci rübündə ötən illə müqayisədə rayonda məhsul buraxılışının həcmi 3 faiz, kənd təsərrüfatının ümümi həcmi 5 faizə yaxın artaraq son nəticədə həm yerli bazarda bolluğun yaranmasına, həm də ölkə əhalisinin tələbatının ödənilməsinə öz müsbət təsirini göstərə bilmişdi. Faktiki olaraq 2016-cı ilin məhsulu üçün rayonda təqribən 20 min hektar sahədə taxıl əkilmişdi. Bunun da təqribən 6000 hektarı buğda, 14000 hektarı isə arpadı. Bu heç də o demək deyil ki, rayonda əkinçiliyin digər sahələri unudulub. Əgər rəqəmlərə istinad etsək, onda görərik ki, Salyan rayonunda həmçinin qarğıdalı, yonca, kartof, tərəvəz və bostan məhsullarının da əkini üçün kifayət qədər torpaq sahəsi ayırlıb. Deməli, torpağa güvənən, torpağa istinad edib ailəsini və ətrafını dolandıran hər bir zəhmət adamı ötən illərdə olduğu kimi, bu ildə də bol məhsul əldə edəcəyinə inanır. Çünki torpaq zəhməti heç vaxt boşa vermir. Ümumiyyətlə isə Salyan rayonunda heyvandarlıq və kənd təsərrüfatının digər sahələri həm rayon rəhbərliyinin, xüsusi olaraq ölkə prezidentinin diqqət mərkəzindədi. Hər kəs birmənalı şəkildə çalışır ki, ölkdə ərzaq bolluğu yaradılsın və Azərbaycan vətəndaşının süfrəsi yerli məhsullarımızla zənginləşsin.

Elə bu məqamda ölkə prezidenti cənab İlham Əliyevin reginlara səfərləri zamanı söylədiyi bir fikir öz aktuallığı ilə diqqəti çəkir. Cənab prezident vurğulayır ki, "Bizim bir məqsədimiz var. O da əl-ələ verib Azərbaycanı daha güclü, daha stabil bir dövlətə çevirməkdi. Bunun üçün də öz imkanlarımızdan bütün gücümüzlə istifadə edib vətəndaşlarımızın bütün ehtiyaclarını ən yüksək şəkildə ödəməliyik".

**(ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

